**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATI VƏ ONUN İNKİŞAFINDA VERGİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: **5308.01 - "Ümumi iqtisadiyyat"**

Elmi sahəsi: **İqtisad elmləri**

İddiaçı: **Mehriban Mirqasım qızı İsgəndərova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyasının

**AVTOREFERATI**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, i.e.d, professor.
**Ziyad Əliabbas oğlu Səmədzadə**

**Rəsmi opponentlər:**

**Pəri Əmirəhmad qızı Həsənova**

iqtisad elmləri doktoru, professor
**Müşviq Cəmil oğlu Atakişiyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosenti,
**Əli Aydın oğlu Allahverdiyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən ED 2.42 Birgə Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d, professor,

**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor

**Məhhərəm Cəlal oğlu Hüseynov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son illərdə dünyada baş verən siyasi-iqtisadi böhran, siyasi səbəblərdən neftin qiymətinin kifayət qədər ucuzlaşması, Koronavirus (COVİD-19) qlobal pandemiyanın fəsadları ölkələrin milli iqtisadiyyatına öz təsirini göstərmişdir.

Qeyd edək ki, 2020-ci il Azərbaycan tarixində zəfər ili oldu. Azərbaycan Respublikasın Prezidenti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız birlik göstərərək rəşadətli Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüz bərpa olundu. Və bu ərazilərin bərpası məqsədilə 2030-cu illərə hədəflənmiş Milli Prioritetlər sırasında “İşğaldan Azad Olunmuş Ərazilərə Böyük Qayıdış” əsas yer tutur. Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin dünya bazarlarına çıxış imkanlarını artıracaq. İşğaldan azad olunmuş ərazilərin bərpa olunmasında xarici və yerli biznes subyektlərinin iştirakı mühüm əhəmiyyət kəsb edəcək və bu ərazilərdə yaradılacaq istehsal və xidmət sahələrinin uğurlu fəaliyyəti nəticə etibarı ilə iqtisadiyyatın mikro və makro göstəriciləri üzrə ümümi daxili məhsulun həcminin artmasına müsbət təsir göstərəcəkdir.

Mövcud bazar iqtisadiyyatı şəraitində kiçik və orta biznesin maliyyə təminatı və onun inkişafında vergi mexanizminin təkmilləşdirilməsi probleminin elmi araşdırılması, kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsi, gələcək perspektivdə maliyyə imkanlarının genişləndirilməsinə əlverişli şərait yaradacaqdır. Müasir dövrdə “Kiçik və orta sahibkarlığın maliyyə təminatı və onun inkişafında vergi mexanizminin təkmilləşdirilməsi” mövzusunda yazılan dissertasiya işi daima aktuallığı ilə seçilir. Dissertasiya işinin yazılmasında əsas məqsəd müasir bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlığın milli iqtisadiyyatın inkişafındakı rolu, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi yollarını, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsində dövlətin və kredit təşkilatlarının rolunun müəyyənləşdirilməsi, bu fəaliyyət növünün vergi yükünün səviyyəsinin dövlət tənzimlənməsi imkanlarının araşdırılması, kiçik və orta sahibkarlıq fəaliyyətində risklərin idarə edilməsinin xüsusiyyətlərini araşdırmaq və qiymətləndirilməsi-

ni beynəlxalq təcrübə əsasında müqayisəli təhlil etmək, kiçik və orta sahibkarlığın inkişafına vergi siyasətinin təsirinin, vergi mexanizminin təkmilləşdirilməsi, vergi yükünün optimallaşdırılmasının qiymətləndirilməsi və inkişaf istiqamətlərini müəyyən etməkdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir şəraitdə həyata keçirilən vergi mexanizminin təklimləşdirilməsi və risklər nəzərə alınmaqla kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşmə təminatının inkişaf etdirilməsidir.

Tədqiqatın predmetini isə ölkə üzrə kiçik və orta sahibkarlığın maliyyələşmə və vergi mexanizminin təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Dissertasiya işinin məqsədi kiçik və orta sahibkarlığın maliyyə təminatı və onun inkişafında vergi mexanizminin təkmilləşdirilməsi məqsədilə yeni təkliflərin təqdim edilməsindən, Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyələşdirilməsində dövlətin və kredit təşkilatlarının rolunun aşkara çıxarılması,vergi tənzimlənməsi nöqteyi-nəzərindən kiçik və orta sahibkarlıq fəaliyyətinin təhlil edilməsindən ibarətdir.

Qoyulmuş məqsədə müvafiq olaraq, dissertasiya işində aşağıdakı vəzifələr nəzərdən keçirilmişdir:

- Kiçik və orta sahibkarlıq fəaliyyətinin iqtisadi anlayışının müəyyən edilməsi;
- Müasir şəraitdə kiçik və orta sahibkarlığın mahiyyəti və əhəmiyyətliliyinin müəyyən olunması;
- Kiçik və orta biznesdə vergi yükünün hesablama metodologiyasının tətbiqinin müəyyənləşdirilməsi;
- Bazar iqtisadiyyatına keçid dövründə və mövcud şəraitdə kiçik və orta biznesə dövlət dəstəyinin zəruriliyinin müəyyən olunması;
- Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi və vergi yükünün dövlət tənzimlənməsinin səmərəliliyi və onun inkişaf perspektivlərinin müəyyən edilməsi;
- Kiçik və orta biznesin maliyyələşdirilməsində bank sektorunun rolunun müəyyən olunması;
- Kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyələşmə təminatının inkışafına vergi yükünün təsirinin təhlil edilməsi;

- Kiçik və orta sahibkarlıq fəaliyyətində risklərin mahiyyətinin ayırd edilməsi;
- Kiçik və orta sahibkarlığın maliyyələşmə mənbəyi kimi kreditlər üzrə risklərinin idarə edilməsinin xüsusiyyətlərinin aşkar edilməsi;
- Kiçik və orta sahibkarlıq kreditlərinin risklərinin və vergi yükünün optimallaşdırılmasının qiymətləndirilməsi və inkişaf prespektivlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın metodları.** Tədqiqatın gedişində doktorant elmi müşahidə, müqayisə, təhlil, sintez, riyazi hesablamalar metodlarından istifadə etmişdir. Bununla yanaşı, müasir şəraitdə kiçik və orta sahibkarlığın maliyyə təminatı və onun inkişafında vergi mexanizminin təkmilləşdirilməsi, kredit təşkilatlarının imkanlarından, dövlətin tənzimləmə mexanizminin tətbiqi və istifadə olunması haqqında Azərbaycanın tədqiqatçı alimləri və beynəlxalq tədqiqatçı alimlərin əsərlərindən istifadə etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin əsas müddəalarını aşağıdakılar təşkil edir.

- Kiçik və orta sahibkarlığın maliyyələşməsinin nəzəri-iqtisadi əsasları.
- Kiçik və orta sahibkarlıq subyektlərinin vergi yükünün mahiyyəti və hesablama metodologiyası.
- Kiçik və orta sahibkarlığın maliyyələşməsinin və vergi yükünün səviyyəsinin dövlət tənzimlənməsi imkanları.
- Kiçik və orta sahibkarlığın maliyyələşməsində bank sektorunun rolu.
- Kiçik və orta sahibkarlığın fəaliyyətində risk anlayışı, onun mahiyyətinin təhlili və risklərin idarə olunması.
- Kiçik və orta sahibkarlığın maliyyələşmə təminatı kimi bank kreditləri üzrə risklərin qiymətləndirilməsi.
- Kiçik və orta sahibkarlığın inkişafına vergi mexanizminin təsiri və vergi yükünün optimallaşdırılmasının qiymətləndirilməsi.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycanda kiçik və orta sahibkarlığın mövcudluğu təcrübəsinin, eləcə də bu sahədə qanunvericiliyinin olması, vergi siyasətinin təsiri mexanizminin müəyyənləşdirilməsi;
- Kiçik və orta sahibkarlığın mahiyyətindən çıxış edərək, kiçik və orta sahibkarlıq anlayışının açıqlanması, onun təsnifatının daha geniş müəyyənləşdirilməsi;
- Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsində dəqiqləşdirmələrin aparılması;
- Kiçik və orta sahibkarlıq subyektlərində vergi yükünün səviyyəsinin dövlət tənzimlənməsi imkanlarının müəyyənləşdirilməsi;
- Kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsinin nəzəri cəhətdən əsaslandırılması;
- Kiçik və orta biznesin inkişafının təmin edilməsində vergi mexanizminin təkmilləşdirilməsinin rolu və vergi siyasətinin təsiri imkanlarını təhlil etməklə meyyarlarının müəyyənləşdirilməsi;
- Kiçik və orta biznesin maliyyələşdirilməsi zamanı vergi mexanizminin rolu və idarəetmə riskləri müəyyənləşdirilərək qiymətləndirilməsi;
- Müasir şəraitdə kiçik və orta sahibkarlığın inkişafında bank sektorunun rolunun əsaslandırılması;
- Milli iqtisadiyyatın inkişafında kiçik və orta sahibkarlığın prioritetlərinin müəyyən olunması;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işində təklif olunan kiçik və orta sahibkarlığın maliyyə təminatı və onun inkişafında vergi mexanizminin təkmilləşdirilməsinin təsir meyarlarının əsaslandırılması, kredit təşkilatlarının rolunun artırılması, risklərin müəyyənləşdirilməsi, vergi yükünün optimallaşdırılması, mövcud normativ-hüquqi bazanın daha da təkmilləşdirilməsi, eyni zamanda bankların uçot dərəcələrinin aşağı salınması, kreditlərin güzəştli şərtlərlə verilməsi kimi və kiçik və orta sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi ilə bu sahənin inkişafına əlverişli şərait yaradacaqdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.**

Dissertasiya işinin əsas müdəaları Azərbaycan Kooperasiya Universitetində keçirilmiş beynəlxalq elmi-praktik konfranslarda, Bakı Biznes Universitetində, Gəncə Dövlət Universitetində keçirilmiş elmi-praktik konfransların materiallarında (2014-2018-ci illər);

Azərbaycan Respublikası Auditorlar Palatasının beynəlxalq elmi-praktik konfransının (2016-cı il) materiallarında; Rusiya Federasiyasının "Экономика, управление, проблемы, решение (2018 г.) jurnalında, Kooperasiya, Audit, Maliyyə və Uçot" jurnallarında (2018-ci il) dərc olunmuşdur. Tədqiqatın nəticələri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən istifadə üçün qəbul olunmuşdur (Arayış № İİEİS-01-5/110 03.07.2018-ci il).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi dokorant tərəfindən Azərbaycan Kooperasiya Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi**. Dissertasiya işi üç fəsil, doqquz paraqraf, 1 şəkil və 10 cədvəldən ibarət olmaqla 140 səhifədə çap olunmuşdur. Dissertasiya işinin Giriş hissəsində 17206 şərti işarə; I Fəsildə 62539 şərti işarə; II Fəsildə 82715 şərti işarə; III Fəsildə 40829 şərti işarə; Nəticə hissəsində 8258 şərti işarə öz əksini tapmışdır. Ümumilikdə dissertasiya işinin həcmi 212161 şərti işarəyə bərabərdir.

Dissertasiya işinin yazılışında 144 ədəbiyyatdan istifadə edilmişdir. Dissertasiya işinin mövzusuna aid müəllifin 18 məqalə və tezisləri çap olunmuşdur.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar,elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın nəticələrinin sınaqlarının keçirilməsi və istifadə olunması şərh edilmişdir.

**Dissertasiya işinin "Kiçik və orta sahibkarlığın inkişafının nəzəri-metodoloji əsasları"na həsr edilmiş birinci fəslində** kiçik və orta sahibkarlığın iqtisadi mahiyyəti, kiçik və orta sahibkarlığın maliyyələşməsinin nəzəri-iqtisadi əsasları və kiçik və orta sahibkarlıq subyektlərinin vergi yükü, onun mahiyyəti və hesablama metodologiyası məsələləri şərh edilmişdir.

Müstəqilliyimizin son 28 ili ərzində sahibkarlığın inkişafında dövlət dəstəyi daim nümayiş etdirilmişdir. Ötən illər ərzində uğurla yerinə yetirilmiş Dövlət Proqramlarının nəticəsi olaraq ölkədə ərzaq təhlükəsizliyinin aradan qaldıırlması məqsədi ilə aqrar sektor inkişaf edərək 2020-ci ildə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 72,4 milyard manatlıq ümümi daxili məhsul istehsal edilmişdir. 2021-2025-ci və sonrakı illərə hesablanmış nəticələrin əldə olunması üçün maliyyə mənbələrinin müəyyənləşdirilməsi prioritet olaraq daim diqqət mərkəzində saxlanılır.

Kiçik və orta sahibkarlığın nəzəri-iqtisadi əsaslarla maliyyələşdirilməsinin xüsusiyyətlərini araşdırarkən, daxili mənbələr hesabına maliyyələşmənin ayrı-ayrılıqda təsərrüfat subyektləri üçün olduğu kimi həm də kiçik sahibkarlıq sferasına zərər vurduğunu unutmaq olmaz. Bu müflis olmaq riskinin ehtimalını, istehsalın genişlənməsində üzləşən çətinlikləri və nəhayət hətta ən uğurlu kiçik müəssisələrin orta və iri müəssisələr sırasına çıxması baryerini daha da artırır.

Şaxələndirmə prinsipi əsasında milli iqtisadiyyatın müxtəlif sahələri üzrə kiçik və orta biznesin maliyyələşdirilməsi kimi mühüm tədbirlərin hədəflənməsi, növbəti illərdə bu sahənin genişləndirilməsi ilə nəticələnə bilər. Eyni zamanda idxalı əvəzləyəcək yerli məhsul və xammalın istehsalı artacaq. Nəticə etibarı ilə ölkə əhalisinin istehlak mallarına olan tələbatının yerli məhsullar hesabına ödənilməsi və xarici ölkələrə ixracın təşviq olunması həyata keçiriləcəkdir. Bu isə öz növbəsində ölkədə kiçik və orta biznesin inkişafının əsas hədəflərinə çevrilməsi ilə özünü təsdiqləyəcəkdir. Ümumiyyətlə milli iqtisadiyyatın inkişafında kiçik və orta biznesin inkişafı məqsədi ilə onun maliyyə təminatının müəyyənləşdirilməsini zəruri edir. Kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təsdiqlənmiş Strateji Yol Xəritəsi çərçivəsində 2025-ci ilə hədəflənmiş mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Araşdırmalar göstərir ki, kiçik müəssisələr üçün maliyyələşmə çətinliyini azaltmaq və aradan qaldırmaq dövlət müdaxiləsi olmadan qeyri-mümkündür. Bu heç də büdcə vəsaitinin istənilən sahibkarın istifadəsinə yönəldilməsi kimi başa düşülməməlidir. Digər tərəfdən heç də hər bir mikro firmanın kiçik, orta və iri müəssisəyə çevrilməsi vacib deyil. Amma inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ilkin

maliyyə kapitalı – kiçik müəssisənin ölçülərinin genişləndirilməsinin ən yaxşı şərtlərindən biridir. Daxili investisiyanın perspektiv biznesə cəlb edilməsi milli iqtisadiyyatın optimal strukturunun, kiçik, orta və iri müəssisələrin effektiv nisbətinin təminatçısıdır. Bu məsələ dövlətin birbaşa maliyyə dəstəyi yolu ilə yanaşı, həm də sərbəst kapitalın kiçik və orta sahibkarlığa yönəldilməsinin mexanizminin işlənib hazırlanması yolu ilə öz həllini dövlət səviyyəsində tapmış olur.

**Cədvəl. Stateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələrə dair göstəricilərin təhlili**

| № | Görüləcək tədbirlər | ÜDM-a təsiri(mln manatla, 2020) | Məşğulluq (tam ştatlı işçilər, 2020) | İnvestisiya məbləği(mln manatla) |
|---|---|---|---|---|
| 1.1 | Mərkəzləşdirilmiş kiçik və orta sahibkarlıq agentliyinin yaradılması | 200 | 240 | 10 |
| 1.6 | Kiçik və orta sahibkarlıq üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması | 475 | 23300 | 630 |
| 2.1 | Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatalrın aparılması | 450 | 900 | - |
| 3.1 | Kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi | 55 | 9800 | 3 |
| 3.2 | Ayrı-ayrı sektorlar üzrə ixrac asosiasiyaların yaradılması | 45 | - | - |
| 4.1 | Biznes inkubatorları və startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin yaradılması | 35 | - | 50 |

Cədvəl Yol Xəritəsinə daxil edilmiş statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qeyd edək ki, vergitutma terminologiyası 200 ildən artıq bir müddətdə müzakirə mövzusu olmuşdur. Əksər müəlliflər “vergi yükü” və “vergi öhdəliyi” anlayışlarını eyniləşdirirlər. Müəlliflərin bir qrupu isə təsərrüfat subyektinin “vergi yükü” və “vergi öhdəliyi” anlayışlarını fərqləndirirlər. Azərbaycanın görkəmli iqtisadçı alimləri Z.Ə.Səmədzadə, A.F.Musayev, E.A.Quliyev, M.C.Atakişiyev, Y.A. Kəlbiyev, C.B.Namazova, İ.M.Abbasov, M.C.Hüseynov, E.R.İbra-

himov, B.X.Ataşov, E.M. Hacızadə, P.Ə. Həsənova, G.Ə.Gənciyev, N.A.Hacıyeva, İ.N.İbrahimov, R.N.Balayev, F.P. Rəhmanov, R.T. Həsənov, Z.M.Məmmədov və xarici ölkə alimləri A.V.Bobrova, D.V.Lazutina və N.A.Solovyova elmi əsərlərində "vergi yükü" və "vergi öhdəliyi" anlayışlarını geniş şərh etmişlər.

Tədqiqatçı alimlər A.B.Borisovun, B.A.Rayzberqin və A.Q. Qryaznovanın lüğətlərində təsərrüfat subyektinin "vergi yükü" anlayışının izahının təhlili bu cür nəticələrə gəlməyə imkan verir: "sahibkarlıq subyektinin vergi yükü" "vergi öhdəliyi"nin sinonimidir, yəni bunlar eyni anlayışlardır; "vergi yükü" termini bu iqtisadi kateqoriyanın istər keyfiyyət, istərsə də kəmiyyət cəhətlərini əks etdirir. Təsərrüfat subyektinin vergi yükünün iqtisadi mahiyyəti isə ondan ibarətdir ki, artıq qeyd olunduğu kimi, bu, dövlətin öz funksiyalarını, o cümlədən sosial funksiyaları yerinə yetirməsi üçün təsərrüfat subyektinin dövlətə verilməsi yolu ilə yeni yaradılmış dəyərinin bir hissəsinin təkrar bölüşdürülməsi əsasında dövlətin və təsərrüfat subyektinin nəticəsi kimi qiymətləndirilir. Bu zaman keyfiyyətli iqtisadi dövlət siyasəti çərçivəsində təşkilatın sahibkarlıq və investisiya fəallığı sistemli şəkildə təmin olunur.

Vergi yükünün mahiyyətinin izahını belə bir tezis də tamamlayır ki, vergi yükü sahibkarlıq gəlirinin bir hissəsidir və dövlət vergi və rüsumlar sistemi vasitəsi ilə bu hissəni müxtəlif səviyyəli büdcələrin nəfinə sahibkarlıq subyektindən alır. Başqa sözlə, bu, təsərrüfat subyektlərinin fəaliyyətinin nəticələrinə vergitutma sisteminin təsir səviyyəsini özündə əks etdirir. Azərbaycanın milli qanunvericiliyində "vergi yükü" və "vergi öhdəliyi" anlayışları eynidir.

Fikrimizcə, vergi yükünün hesablanması üsulunu seçərkən belə bir faktı nəzərə almaq lazımdır ki, çıxış göstəriciləri məqsədli məlumatın tamlığını açıqlamalıdır. Qeyd etmək lazımdır ki, əksər tədqiqatçılar təsərrüfat subyektinin vergi yükünün hesablanmasında verginin həcmini fiziki şəxslərin gəlirlərinə şamil etməyi məsləhət görmürlər, çünki bu halda təsərrüfat subyekti vergi ödəyicisi qismində deyil, vergi agenti qismində çıxış edir. Vasitəli vergilərin həcmi isə, əksinə, əksər metodikalarda vergi yükünün hesablanmasında iştirak edir.

Vergi yükünün mahiyyətinin və hesablama metodologiyasının düzgün tədqiqi kiçik və orta sahibkarlığın maliyyələşmə mənbələrinin müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, kiçik və orta sahibkarlığın maliyyələşməsi və vergi yükünün dövlət tənzimlənməsi hər bir ölkədəki mövcud ictimai siyasi şəraitdən, əlverişli vergi və investisiya mühitindən, milli iqtisadiyyatın formalaşdırılmasının spesifik xüsusiyyətlərindən bilavasitə asılıdır.Bu baxımdan da hər bir ölkədə mövcud əlverişli iqtisadi şərait real sektorun inkişafında mühüm rola malikdir.

**Dissertasiya işinin "Kiçik və orta sahibkarlığın maliyyələşməsi və vergi yükünün dövlət tənzimlənməsi" adlanan ikinci fəslində** kiçik və orta sahibkarlığın maliyyələşməsinin dövlət tənzimlənməsinin xüsusiyyətləri, kiçik və orta sahibkarlığın maliyyələşməsində bank sektorunun rolu və kiçik və orta sahibkarlıq subyektlərinin vergi yükünün səviyyəsinin dövlət tənzimlənməsi imkanları tədqiq edilmişdir.

Dünya coğrafiyasında baş verən qlobal proseslər milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini yüksəltmək, idxal mallarından asılılığı aradan qaldırmaq, ixracın stimullaşdırılması məqsədilə müvafiq tədbirlərin görülməsini şərtləndirir.

Kiçik və orta sahibkarlığın inkişafı məqsədilə təsdiq olunan dövlət proqramlarında dövlət tərəfindən dəstəyin bir sıra istiqamətləri öz əksini tapmışdır:

- Kiçik və orta sahibkarlığın inkişafının və himayəsinin normativ-hüquqi bazasının formalaşdırılması;
- Maliyyə-kredit və investisiya dəstəyi;
- İstehsal və innovasiya dəstəyi. Yeni iş yerlərinin yaradılması;
- Kiçik və orta sahibkarlığın inkişaf və dəstəyi infrastrukturunun formalaşdırılması;
- İnformasiya təminatı;
- Elmi-metodik və kadr təminatı;
- Kiçik və orta sahibkarlıqda sosial mühafizə və təhlükəsizlik;
- Dövlət və ictimai himayədarlıq sisteminin yaradılması.

Kiçik və orta sahibkarlığın normativ-hüquqi bazasının yaradılması kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi azadlığını, təminatını və hüququnu təmin edən, təsərrüfat subyektləri, tərəfdaşlar, is-

tehlakçılar, büdcə təşkilatları qarşısında onların vəzifə və məsuliyyətlərini müəyyənləşdirən məcburi və vacib şərti sayılır.

Vergi siyasəti üzrə elmi araşdırmalar aparan ölkəmizin iqtisadçı alimləri vergi potensialı anlayışından 1990-cı illərin ortalarında, Azərbaycanda müasir vergi sisteminin yaradılmasından etibarən istifadə etməyə başlayıblar.

Kiçik və orta sahibkarlıq subyektlərində vergi potensialının proqnozlaşdırılması üzrə optimal metodikaların tətbiqi hər hansı tədbirin görülməsi, yaxud təsərrüfat subyektinin fəaliyyət istiqamətinin müəyyən olunması ilə əlaqədar daha obyektiv qərarın qəbul olunmasına şərait yaradır. Bu yolla xarici və daxili amillərin təsərrüfat subyektinin vergi potensialına mümkün təsirləri daha dolğun şəkildə nəzərə alınır.

Təcrübə göstərir ki, vergi siyasətinin praktik icrası vergi mexanizmi vasitəsi ilə həyata keçirilir. Bütün ölkələrdə məhz vergi mexanizmi iqtisadiyyatın tənzimləyicisi hesab olunur. Vergi mexanizmi vergi sisteminin idarə olunması üzrə təşkilati, hüquqi norma və üsullarının məcmusunu təşkil edir. Vergi yükü vergi dərəcələri, vergi güzəştləriı, vergi sanksiyaları, vergi bazasının yaradılması kimi alətlərin köməyi ilə tənzimlənir. Dünya tendensiyalarına müvafiq olaraq, verginin güzəşt vasitəsi ilə tənzimlənməsi innovasiya fəaliyyətinə xasdır, vergi endirimləri isə sərmayələrin stimullaşdırılmasının əsas alətlərindən biri olaraq qalır. İstər xarici, istərsə də ölkəmizin təcrübəsində təsərrüfat subyektinin vergi yükünün tənzimlənməsinin ən geniş yayılmış üsullarına aşağıda qeyd olunanlar aid edilir:

- vergi ödənişinə möhlət verilməsi;
- sərmayə təyinatlı vergi krediti;
- vergi tətilləri;
- vergi amnistiyası;
- vergi çıxımları;
- vergi dərəcələrinin seçilməsi, dəyişdirilməsi və differensiallaşdırılması;
- ikiqat vergitutmanın qarşısının alınması haqqında beynəlxalq müqavilələr;
- vergi sisteminin tərkibinin və strukturunun dəyişilməsi;

- bir vergitutma üsulunun və ya formasının digəri ilə əvəzlənməsi;
- vergi güzəştlərinin və dərəcələrinin dəyişilməsi, onların istiqamətlər və obyektlər üzrə yönləndirilməsi;
- vergilərdən tam və ya qismən azad olmaq;
- sərmayə yönümlü vergi endirimləri;
- amortizasiya mükafatı.

Qeyd edək ki, vergi yükünün yolverilən diapazonu vergi yükünün ümumiləşdirilmiş səmərəlilik göstəricisindən asılılığının ekonometrik modeli əsasında müəyyən oluna bilər.

Kiçik və orta sahibkarlıq subyektinin fəaliyyətinin nəticəsi onun əldə etdiyi mənfəətdir. Vergitutma nəzəriyyəsi məsələlərini nəzərdən keçirərkən bazar iştirakçılarının səmərəli davranışından çıxış edirlər. Digər bərabər şəraitdə vergi yükünün daha yüksək səviyyəsi təsərrüfat subyektinin davamlı surətdə işləməsini təmin edən dövriyyə vəsaitlərinin azalmasına, genişləndirilmiş təkrar istehsal prosesi üçün zəruri olan maliyyə ehtiyatlarının tükənməsinə gətirib çıxarır. Buna görə də vergi yükünün monitorinqi zamanı aşağıdakı şərt yerinə yetirildikdə

$$\xi_r < \xi_f < \xi_{max} \qquad (1)$$

və burada $\xi_{max}$ – məcmu vergitutmanın məqul səviyyəsinin yuxarı həddi; $\xi_f$ – vergi yükünün faktiki qiyməti olduqda, mövcud vergitutma sistemi çərçivəsində təşkilatın işinin səmərəli olmamasından, təşsərrüfat subyektinin sərəncamında olan resurslardan məqsədyönlü istifadə edilməməsindən və ya qeyri-effektiv nisbətindən danışmaq olar. $\xi_r$ – ümumiləşdirilmiş səmərəlilik göstəricisinin maksimumunu təmin edir.

Aşağıdakı şərt yerinə yetirildikdə

$$\xi_{min} < \xi_f \le \xi_r \qquad (2)$$

və burada $\xi_{min}$ – məcmu vergitutmanın məqul səviyyəsinin aşağı həddi olduqda, sahibkarlıq subyekti səmərəli işləyir.

Əgər vergi yükünün faktiki qiyməti məcmu vergitutmanın məqbul səviyyəsinə müvafiqdirsə:

$$\xi_{min} < \xi_f < \xi_{max}, \qquad (3)$$

statistik hesabatların məlumatlarına əsasən isə sahibkarlıq subyekti ziyana düşürsə, bu, pozuntuların baş verdiyini, maliyyə və vergi hesabatlarının daha ətraflı təhlil edilməsinin zərurəti yaranır.

Qeyd olunan metodika iqtisadi-riyazi modelləşdirmənin köməyi ilə əsaslandırılmış vergi yükünün göstəricisi ilə bərabər şəkildə sahələr, regionlar və bütünlüklə iqtisadiyyat səviyyəsində kiçik və orta sahibkarlıq subyektlərinin vergi yükünün tənzimlənməsi haqqında təkliflərin irəli sürülməsi prosesi çərçivəsində modellərin işlənib hazırlanması üçün istifadə oluna bilər. Bununla yanaşı kiçik və orta sahibkarlığın inkişafı məqsədilə maliyyələşməsində risklərin idarə edilməsi, təsərrüfat fəaliyyətinə vergi mexanizminin təkmilləşdirilməsinin təsiri, vergi yükünün optimallaşdırılmasının qiymətləndirilməsi sahibkarlıq fəaliyyətinin milli qanunvericilik baxımından inkişafını şərtləndirir.

Qeyd etmək lazımdır ki, iqtisadi inkişafın əsasını məhz özəl sektor təşkil etməklə, son on səkkiz il ərzində həyata keçirilən iqtisadi islahatlar nəticəsində sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmışdır. Özəl sektora dövlət dəstəyini fəaliyyət prioritetliyi kimi elan edən Prezident İlham Əliyevin imzaladığı məlum Fərmanda öz əksini tapmışdır.

Formalaşmış sahibkarlar ordusunun tərkibində kiçik və orta sahibkarlığın inkişafı və fəaliyyətinin genişləndirməsi üçün ilk növbədə kiçik və orta sahibkarılığın maliyyələşmə mənbələrinin aşkarlanması və mövcudluğu əsas şərtlərdən biridir.

Müasir dövrdə hamı tərəfindən qəbul edilən və praktiki həyatda özünü doğruldan maliyyə vəsaitlərinin yaranma mənbələrindən birinin də vasitəçisi kommersiya banklarıdır. Bunun üçün bank yeni sahibkarlıq fəaliyyətinə başlayan şəxslərlə təmasda maraqlı olmalı, o, kifayət dərəcədə maliyyə ehtiyatlarına malik olmalı və eyni zamanda bu vəsaitləri uzunmüddətli kreditlər şəklində vermək qabiliyyətinə malik olmalıdırlar. Bu halda kiçik və orta sahibkarlıq subyektləri tərəfindən banka yüksək mənfəət əldə etməyin mümkünlüyünü təsdiq edən layihələr təqdim edilməlidir.

Kiçik və orta sahibkarlığın maliyyələşməsində qeyri-bank təşkilatları da mühüm rol oynayır. Buraya «Kiçik biznesə yardımçı

fondu», «lizinq əməliyyatları», «İxracın və İnvestisiyaların Təşviqi Fondu»nu aid etmək olar.

Elmi araşdırmalar göstərir ki, bank əməliyyatları ilə yanaşı lizinq əməliyyatlarının tətbiqinə və onun genişləndirilməsinə əsaslı şəkildə şərait yaradan onun iştirakçıları üçün müəyyən edilmiş vergi güzəştləri sistemidir. Müasir şəraitdə Azərbaycanda 30-dan artıq lizinq şirkətləri yaradılmış və fəaliyyət göstərirlər. Lizinq şirkətlərinin vasitəsi ilə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsində vergitutma amillərinin müəyyənləşdirilməsi də vacib şərtlərdən biri sayılır. Kiçik və orta sahibkarlığın inkişafı qanunvericiliklə müəyyən olunmuş vergi güzəştlərinin tətbiqindən cox aslıdır. Bu kimi stimullaşdırıcı tədbirlər kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətədavamlı məhsul istehsalının və xidmətlərinin göstərilməsini motivasiya edir. Sahibkarlıq subyektlərinin vergi potensialı və vergi yükünün səviyyəsinin dövlət tərəfindən tənzimlənməsi imkanları daha genişdir. İlk növbədə tədqiqat zamanı vergi potensialını ayırd etməklə kiçik və orta sahibkarlıq subyektləri tərəfindən vergilərin dövlət büdcəsinə vaxtında ödənilməsi öhdəliyinin yerinə yetirilməsi çox önəmli olduğu müəyyən edilməli və daha sonra vergi yükünün səviyyəsinin dövlət tənzimlənməsi imkanları aydınlaşdırılmalıdır.

**Dissertasiya işinin "Kiçik və orta sahibkarlığın maliyyələşməsində risklərin idarə edilməsi və vergi mexanizminin təkmilləşdirilməsinin prioritetləri"nə həsr edilmiş üçüncü fəslində** kiçik və orta sahibkarlıq fəaliyyətində risk anlayışı və onun mahiyyətinin təhlili, kiçik və orta sahibkarlığın maliyyələşmə mənbəyi kimi bank kreditləri üzrə risklərinin qiymətləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafına vergi mexanizminin təsiri, vergi yükünün optimallaşdırılmasının qiymətləndirilməsi və inkişaf istiqamətləri tədqiq edilmişdir.

Müasir sahibkarlıq fəaliyyətinin təşkili risksiz mümkün deyil, çünki biznesin uğuru təkcə işgüzarlıq fəaliyyətinin seçilmiş strategiyasının düzgünlüyü və mötəbərliyindən deyil, həm də böhranlı vəziyyətlərin nəzərə alınmasından asılıdır. Bazar münasibətləri şəraitində biznes fəaliyyətini davam etdirmək üçün texniki yeniliklərin tətbiqi, cəsarətli və həlledici addımlar lazımdır ki, bu da riski artırır. Deməli,

sahibkarın əsas vəzifəsi riskdən yayınmaq deyil, riskin dərəcəsini dəyərləndirib onu idarə etmək bacarığıdır.

Riskin tərifi, mahiyyəti və təbiətinə dair bir çox fikirlər mövcuddur. Bu isə riskin çoxşaxəliliyi, gerçək fəaliyyətdə yetərincə istifadə edilməməsi və mövcud qanunvericilikdə nəzərə alınmamasından irəli gəlir. Riskin ümumi məzmununu əhatə etməklə bir-birini tamamlayan iki əsas məfhumunu nəzərdən keçirək.

Birinci məfhum: risk təsərrüfat subyektinin bu və ya digər istehsalat və ya maliyyə fəaliyyəti nəticəsində ehtiyatlarının və ya mənfəətinin bir hissəsindən məhrum olmaq, yaxud əlavə risklərin ortaya çıxmaq ehtimalı (təhlükəsi) kimi tərif olunur. Beləliklə, risk hansısa arzuolunmaz hadisə, uğursuzluq və ya təhlükə ehtimalı ilə bağlıdır.

Kiçik və orta sahibkarlığın inkişaf dinamikası bir çox risk amillərindən, o cümlədən sahibkarların biznes fəaliyyəti ilə məşğul olmağa hazırlıq səviyyəsi və maliyyə imkanlarından asılıdır.

Kiçik və orta istehsal müəssisələrinin yaradılması və inkişafı nəticəsində iqtisadiyyat sahələri üzrə yeniliklərin, mütərəqqi texnologiyaların tətbiqi sürətlənir, əhalinin məşğulluq səviyyəsi artır, azad rəqabət mühiti formalaşır, sahibkarlar yüksək keyfiyyətli məhsulun istehsalına ciddi səy göstərir.

Fikrimizcə, kiçik və orta sahibkarlıq subyektlərinin mahiyyətini müəyyənləşdirən əsas xüsusiyyət ondan ibarətdir ki, onlar böyük həcmdə kapital qoyuluşu tələb etmir, bazar konyukturasının dəyişməsinə operativ reaksiya verir, bazar iqtisadiyyatına yüksək mobillik və çeviklik gətirir. Kiçik və orta sahibkarlığın maliyyələşməsində bank kreditləri üzrə risklərin qiymətləndirilməsi bu fəaliyyət növünün səmərəliliyinə öz təsirini göstərməklə yanaşı, onun inkişafını da təmin edə bilər.

Kiçik və orta sahibkarlığın inkişafına yönəldilmiş bank kreditlərinin risklərinin ölçülməsinin ümumi müddəaları Azərbaycan Respublikası Mərkəzi Bankının risklərin idarə edilməsi standartına dair normativ aktlarına əsaslanır. Bu standartın məqsədi mövcud qanunvericiliyə və mükəmməl beynəlxalq təcrübəyə uyğun olaraq, banklarda idarəetmənin təşkilinə yardımçı olmaq, aidiyyəti prosedurların yerinə yetirilməsindən ibarətdir. Hər bir bank bu standartın müddəala-

rının fəaliyyəti nəticəsində üzləşdiyi risklərin növlərinə, xüsusiyyətlərinə və həcminə, həmçinin sağlam nəzarət mühitinə uyğun olaraq tətbiq etməlidir.

Fikrimizcə, riskin idarə edilməsi riskli hadisələrinin ortaya çıxmasını müəyyən dərəcədə proqnozlaşdırmaq və onların mənfi nəticələrinin istisna edilməsi və ya azaldılması üçün tədbir görməyə imkan verən üsul, fənd və tədbirlərin cəmi kimi səciyyələndirilə bilər. Riskin idarə olunmasının əsas prinsipləri aşağıdakı kimi ayırd edilir:

- əldəki kapital imkan verdiyindən çox risk etmək olmaz;
- riskin nəticələrini düşünmək lazımdır;
- çox şeyi az naminə riskə qoymaq olmaz.

Bu prinsiplər əsasında riskin idarə olunmasının əsas üsullarını qeyd etmək olar. Buraya aiddir: riskdən yayınmaq, risk dərəcəsini azaltmaq, riski qəbul etmək.

Riskdən yayınmaq risklə bağlı olan tədbirdən (layihədən) imtina etmək deməkdir. Bu barədə qərar yuxarıdakı prinsiplər gözlənilmədikdə, belə ki, mümkün itkilər gözlənilən gəlirdən çox olduğu təqdirdə qəbul edilir. Bu prinsip qeyri-müəyyənlikdən və mümkün itkilərdən tamamilə yaxşı qurtarmağa imkan versə də gəliri də istisna edir. Bundan başqa, riskin bir növündən yaxa qurtarmaq başqasının meydana çıxması ilə nəticələnə bilər. Risk dərəcəsinin azalması itkilərin ehtimalının və həcminin azalması mənasına gəlir. Digər tərəfdən riskin qəbul olunması riskin bütövlüklə və ya qismən (riskin bir hissəsi başqasının üzərinə qoyulursa) sahibkarın üzərində, yəni onun məsuliyyətində qalması deməkdir. Bu halda kiçik və orta sahibkarlıq subyektləri mümkün itkiləri öz hesabına ödəmək barədə qərar qəbul edir.

Riskin azaltmasının digər yolu da tam məlumatın əldə edilməsidir. Məlumat asan əldə edildikdə istehlakçılar daha yaxşı proqnoz verə bilər və riski azalda bilərlər. Qeyd edək ki, qiymətli əmtəə olan informasiya pula satılır.

Təcrübə göstərir ki, əməldə ən səmərəli nəticəni yalnız riskin azaldılmasına dair müxtəlif üsulları kompleks istifadəsi zamanı əldə etmək olar. Fikrimizcə, onları bir-biri ilə müxtəlif cür birləşdirməklə riskin azaldılması səviyyəsi və bunun üçün gərəkli olan əlavə xərclər arasında optimal nisbətə də çatmaq olar.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətin ən mühüm vəzifələrindən biridir. Qeyd olunduğu kimi kiçik və orta biznesin inkişafı üçün əlverişli institusional mühitin yaradılması, iqtisadiyyatın diversifikasiyasına, qeyri-neft sektorunun şaxələndirmə prinsipi əsasında genişlənməsinə, yeni iş yerlərinin açılmasına, eyni zamanda onun modernləşdirilməsinə əlverişli şərait yaradır.

Son 18 ildə Azərbaycanda aparılmış əsaslı islahatlar sahibkarlıq fəaliyyəti üçün iqtisadi mühitin formalaşması ilə nəticələnmişdir. Və sahibkarlığın inkişafının davamlı xarakter daşıması məqsədilə qanunvericilik mühitinin təkmilləşdirilməsi, kiçik və orta biznesin stimullaşdırılmasında vergi mexanizminin təkmilləşdirilməsi, müasir menecment və idarəetmə üsullarının tətbiqi, ölkədə müəyyən edilmiş iqtisadi inkişaf strategiyasında öz əksini tapmışdır. Sahibkarlığın inkişaf etdirilməsi üçün güzəştli kreditlərin verilməsi, bank sektorunun və maliyyə-kredit münasibətlərinin inkişafı ölkədə kiçik və orta biznesin fəaliyyət dairəsinin genişlənməsinə əlverişli mühitin formalaşmasını şərtləndirmişdir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafında vergi siyasətinin tətbiqində bir sıra əsas istiqamətlərin müəyyənləşdirilməsi tələb olunur:

- iqtisadiyyatın qloballaşması şəraitində beynəlxalq təcrübədə kiçik və orta sahibkarlığın profilinin təhlili və onun iqtisadi inkişafa təsiri müxanizmlərinin araşdırılması;
- Kiçik və orta sahibkarlığın identifikasıyası və onun müəyyən edilməsi;
- Kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran vergi siyasətinin formalaşdırılması və vergi mexanizminin təkmilləşdirilməsinin vergi daxilolmalarının strukturuna təsirinin təhlili;
- Kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran vergi siyasətinə ölkədə həyata keçirilən sosial –iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi kimi yanaşılması;
- Dövlət sahibkar münasibətlərinin, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi kimi vergi siyasəti üzrə müəyyənləşdirilmiş istiqamətlər kiçik və orta sahibkarlığın inkişafında əhəmiyyətli təsir göstərə bilər.

Qeyd edək ki, vergi sisteminə və vergitutma prinsiplərinə kiçik və iri biznes strukturlarının münasibəti fərqli olur.

Azərbaycanda qüvvədə olan vergi qanunvericiliyinə əsasən kiçik və orta biznes subyektlərinin əksəriyyəti sadələşdirilmiş vergi rejimində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdir. Lakin qeyd etmək lazımdır ki, kiçik və orta biznesin inkişafında bir çox ölkələrdə, dövriyyədən asılı olmayaraq, hipotetik vergi tətbiq olunur. Və bu vergi növü bir sıra üstünlüklərə malikdir:

- vergi inzibatçılığını azaldır;
- vergidən yayınma hallarını aşağı salır;
- vergi daxilolmalarının proqnozlaşdırılmasını asanlaşdırır;
- ödənilən vergi dövriyyədən asılı olmadığına görə kiçik və orta biznes fəaliyyətini stimullaşdırır və onun rentabelliyini yüksəldir;
- vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq əlaqələrini gücləndirir.

Statistik göstəricilərin təhlili bir daha onu deməyə əsas verir ki, kiçik sahibkarlıq seqmenti Azərbaycanda demək olar ki, dinamik şəkildə inkişaf edir.

Kiçik və orta sahibkarlıq subyektləri bazar iqtisadiyatı şəraitində bazarın müxtəlif seqmentlərində fəaliyyət göstərməklə əlavə iş yerləri yaradırlar. Yeni iş yerlərinin açılması cəmiyyətin inkişafına və eyni zamanda dövlətin sosial yükünün azalmasına səbəb olur. Kiçik və orta biznes subyektləri milli iqtisadiyyatın elə sahələrində fəaliyyət göstərir ki, onlar iri sahibkarlıq subyektləri tərəfindən əhatə edilə bilinmirlər. Ona görə də, dövlət kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyir və onun genişlənməsi üçün əlverişli vergi mühitini formalaşdırmaqla bu sahənin inkişafına perespektiv imkanlar yaradır.

## NƏTİCƏLƏR

1) Kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi sahəsində dövlət siyasətinin əsas məqsədi subsidiyaların, güzəştli kreditlərin verilməsi, müvafiq hüquqi-institusional vergi mühitinin formalaşdırılmasından ibarətdir.

2) Kiçik və orta sahibkarlığın inkişafında vergi mexanizminin təkmilləşdirilməsinin tətbiqi, dövlət tərəfindən həyata keçirilən digər iqtisadi siyasət alətləri ilə qarşılıqlı əlaqəli şəkildə həyata keçirilməlidir.

3) Kiçik və orta biznes subyektlərinin rentabellik dərəcəsi bir birindən fərqlənir. Və vergi qanunvericiliyində sadələşdirilmiş vergi dərəcələrindəki fərqlər yalnız fəaliyyət məkanına görə nəzərdə tutulmuşdur. Lakin, həmin vergi dərəcələrinə defferensiallaşdırılmış yanaşma iqtisadi və sosial baxımdan inkişafı daha zəruri olan sahələrin genişləndirilməsinə və diversifikasiyasına şərait yaratmış olardı.

4) Kiçik və orta biznes subyektlərinin vergiyə cəlb edilməsində əsas rol oynayan sadələşdirilmiş vergi rejimindən standart vergi sisteminə keçid, vergi yükünün kəskin şəkildə dəyişməsinə, bu isə öz növbəsində vergidən yayınma hallarının artmasına, müşahidə olunmayan iqtisadiyyatın genişlənməsinə səbəb olur. Bu baxımdan vergi məqsədləri üçün kiçik və orta sahibkarlığın meyarlarına ümumi vergi meyarlarından fərqli şəkildə baxılmalıdır.

5) Kiçik və orta sahibkarlığın dəstəklənməsi və qanunvercilik aktlarına uyğun güzəştlərin verilməsi ilə bu fəaliyyət növü motivasiya olunaraq daha uğurlu nəticələrin əldə olunmasına şərait yaranacaqdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. İsgəndərova M.M. Kiçik biznesin maliyyələşdirilməsinin nəzəri əsasları və inkişaf problemləri. Audit jurnalı № 3. 2014. s. 30-36.

2. İsgəndərova M.M. Kiçik biznesin maliyyələşdirilməsinin formalaşmasında kreditləşmənin təkmilləşdirilməsi. Kooperasiya elmi-praktiki jurnal. № 2, 2015. s. 136-141.

3. İsgəndərova M.M. Kiçik biznesin maliyyələşdirilməsinin dövlət tənzimlənməsinin səmərəliliyi. Ümummilli lider H.Əliyevin anadan olmasının 92 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans. Bakı Biznes Universiteti. 2015. s. 414-417.

4. İsgəndərova M.M. İqtisadi şaxələndirmə prosesində qeyri-neft sektorunun inkişafında kiçik biznesin prioritetliyi. Azərbaycan Respublikası Auditorlar palatası. Elmi-praktik konfrans 2016 il. Bakı s. 227-228.

5. İsgəndərova M.M. Kiçik biznesdə kredit risklərinin idarə edilməsinin xüsusiyyətləri. Akademik Z.Ə.Səmədzadənin 75 illiyinə həsr olunmuş Elmi-praktiki konfrans. Bakı 2016.

6. İsgəndərova M.M. Kiçik və orta sahibkarlığın inkişafında vergi siyasətinin rolu.Bakı 2017. Bakı Biznes Universiteti. Elmi-praktiki konfrans. May 2017.

7. İsgəndərova M.M. Müəssisələrin idarə olunmasında audit nəzarətinin rolu və onun təkmilləşdirilməsi. Azərbaycan Respublikası Auditorlar Palatası. Elmi-praktik konfrans. Bakı 2017 il sentyabr. s. 473-474.

8. İsgəndərova M.M. Azərbaycanda biznes fəaliyyətinin inkişafında dövlətin tənzimlənmə metodları. Lənkəran Dövlət Universiteti. Beynəlxalq elmi-praktik konfrans. 2017-ci il dekabr.

9. İsgəndərova M.M. Kiçik və orta sahibkarlıq fəaliyyətində maliyyə vəziyyətinin qiymətləndirilməsi. Bakı Biznes Universiteti. Beynəlxalq elmi-praktiki konfrans. May 2018.

10. İsgəndərova M.M. Azərbaycan Respublikasının kiçik və orta sahibkarlıqda maliyyə menecmentinin rolu. Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı. Elmi-praktiki konfrans. 2018 il may. s. 117-118.

11. İsgəndərova M.M. Kiçik və orta sahibkarlığın inkişafında maliyyə nəzarətinin tətbiqi. Azərbaycan Kooperasiya Universiteti. Bakı 2018 il may. s. 947-949.

12. İsgəndərova M.M. Kiçik və orta biznesin inkişafına dövlət dəstəyi. Azərbaycan Respublikası Gəncə Dövlət Universiteti. Beynəlxalq elmi konfrans. Gəncə 2018, 04-05 may. s. 326-328.

13. İsgəndərova M.M. Sahibkarlıq fəaliyyətində kredit risklərinin təhlili və qiymətləndirilməsi. Maliyyə və uçot jurnalı. 07 2018. s. 28-32.

14. İsgəndərova M.M. Особенности налоговой политики регулировании малого и среднего предпринимательства. Эконо-

мика, управление: проблемы, решения. № 9, 2018 год. Сентябрь г. Москва. с. 154-161.

15. İsgəndərova M.M. Kiçik və orta sahibkarlıq fəaliyyətində vergi potensialı və onun artırılması istiqamətləri. Audit jurnalı. № 2. 2018. s. 58-67.

16. İsgəndərova M.M. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının prioritet istiqamətləri və maliyyələşdirmə mənbələri. Kooperasiya elmi-praktiki jurnal № 3, 2018. s. 106-110.

17. İsgəndərova M.M. Respublikada sahibkarlıq subyektlərinin inkişafında maliyyə təminatının rolu və təkmilləşdirilməsi. Maliyyə və uçot jurnalı. Bakı 2018. s. 27-33.

18. İsgəndərova M.M. Assessment of the indicators influencing the development of small businesses.İnternational journal of innovative texnologies in economy. Scientific edition. (c jurnal) 7(27) December 2019 Warsaw Poland. Page. 3-8.

Həmmüəlliflər Yadigarov Təbriz Abdulla oğlu, Allahverdiyev Dağbəyi İsa oğlu, İskəndərova Mehriban Mirqasım qızı.

Assessment of factors deternuning development of small business.

The world of science and innovation. Proceedings of IX international scientific and practical conference Aprel 7-9, 2021. United Kingdom London 2021. Çapdadır.



Dissertasiyanın müdafiəsi ***__21may__*** 2021-ci il tarixdə, saat ***__16$^{00}$__***-da Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən ED 2.42 Birgə Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az 2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ***__«21» aprel__*** 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.04.2021
Kağızın formatı: (210x297) 1\4
Həcm: 42201 işarə
Tiraj: 100